# Milli Kitabxanada Beynəlxalq Qadınlar Günü münasibətilə sərgi hazırlanıb

**Milli Kitabxananın əməkdaşları tərəfindən "8 Mart Beynəlxalq Qadınlar Günü" adlı virtual sərgi, həmçinin eyniadlı ənənəvi kitab sərgisi hazırlanıb.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə Azərbaycan qadınının iradəsi və mərdliyi, saflığı və sədaqəti, cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna xidmətləri, gender bərabərliyi və s. haqqında dövri mətbuatda çap olunan məqalələr, fotolar, kitablar nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər linkindən istifadə edə bilərlər.

Ənənəvi kitab sərgisində isə "Azərbaycanda qadın məsələsi: tarix və müasirlik XIX əsrin sonu - XX əsrin əvvəli", "Heydər Əliyev və Azərbaycanda qadın siyasəti", "Tarixə adını yazan Azərbaycan qadınları", "Azərbaycan dövlətçiliyində qadınların rolu", "Qadın problemləri", "Dünya qadın həmrəyliyi və s. mövzularda Azərbaycan və xarici dillərdə ədəbiyyatlar nümayiş olunur.




Sərgi bir həftə davam edəcək.

Azərbaycan.- 2025.- 8 mart (№52).- S.10.